18-24 yanvar 2024-cü il

## 20 Yanvar tariximizin qəhrəmanlıq səhifəsidir!

# Qanlı tarixdən 34 il ötür...

İnsanlar fərqli tarixlərdə doğulur, fərqli tarixlərdə də dünyalarını dəyişirlər. Bəzən eyni tarixdə doğulan və ya ölən insanlara da rast gəlinir. Biz buna təsadüf deyirik. Ancaq 1990-cı ilin 20 yanvar tarixində minlərlə insanın ölüm tarixi eyni gündə yazıldı, həm də heç bir təsadüf olmadan, bilərəkdən, planı şəkildə...

Bu gün artıq o tarixdən 34 il keçir, amma xalqımızın qəlbinə vurulan yaranın acısı keçmək bilmir... 34 il öncə 20 yanvar tarixində Sovet Ordusunun seçmə hərbi hissələri fövqəladə vəziyyət elan olunmadan Bakıya yeridilmiş, misli görünməmiş dəhşətli qırğınlar törətmiş, xalqımıza qarşı amansız işgəncələr etmişlər. 20 Yanvarla bağlı xatirələr bu illər ərzində heç zaman yaddaşlardan silinmir, əksinə hər il o kədərli anları bir daha yeniləyərək, düşmənə nifrət hissini daha da artırır. Həmin gün Vətənimizin azadlığı, müstəqilliyi uğrunda mübarizəyə qalxmış insanlar düşmən gülləsinə tuş gəldilər. Qəhrəmanlıqlar, şücaətlər göstərərək həlak oldular, şəhidlik zirvəsinə ucaldılar.

**FAKT VƏ RƏQƏMLƏR**

***Qanlı Yanvar hadisələri zamanı 147 nəfər həlak olub, ümumi nəticəyə görə isə bu hadisələrdə yaralananların sayı 800, həbs olunanların və itkin düşənlərin sayı isə 1000 nəfərdən çox olub.***

***Eyni zamanda 200 ev və mənzil talan edilərək yandırılıb, 80 avtomaşın, külli miqdarda şəxsi və dövlət əmlakı məhv edilib.***

20 Yanvar hadisələrinə siyasi qiymət ilk dəfə Ulu Öndər Heydər Əliyev tərəfindən verilmişdir. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və göstərişləri ilə 1994-cü ilin mart ayının 29-da parlament “1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında” Qərar qəbul etdi. Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə “20 Yanvar Şəhidi” fəxri adı təsis edildi. Prezident İlham Əliyevin uğurlu sosial siyasəti nəticəsində 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər və şəhid ailələri üçün etibarlı sosial müdafiə sistemi formalaşıb və şəhid ailələrinə qayğı daim dövlətin diqqət mərkəzindədir. Prezident İlham Əliyev tərəfindən 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi məqsədilə mühüm işlər görülmüşdür. Dövlətimizin başçısının 19 yanvar 2006-cı il tarixli “20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” Fərmanına əsasən, şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə aylıq təqaüd də ayrılmışdır.











Ümummilli lider Heydər Əliyev bu faciə ilə bağlı deyirdi: ***“Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi. 1990-cı ilin qanlı Yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Bu gün Azərbaycan xalqı onun milli mənliyini qorumaq üçün öz canlarından keçməyə hazır olan övladları ilə fəxr edir.”***

Bəli, Azərbaycan xalqı nəinki 20 Yanvarda tanklardan, silahlardan qorxmayaraq irəli gedən övladları ilə, eyni zamanda 30 il sonra həmin şəhidlərin qanını yerdə qoymayıb qisasını alan, bu yolda canını fəda edən, bədənini güllələrə sipər edən, yaralanan, qazi olan övladları ilə də hər zaman fəxr edir və edəcəkdir.

*Hüseynova Mətanət*